EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

# Müvəqqəti məcburiyyət tədbirləri

## Praktik məlumatlar

**Müvəqqəti məcburiyyət tədbirləri nədir?**

Məhkəməyə şikayət ərizəsi daxil olarkən o, həmin şikayət ərizəsinə baxılan müddət ərzində Dövlətin müəyyən müvəqqəti məcburiyyət tədbirləri görməsi barədə qərar qəbul edə bilər. Bu adətən Dövləti nə isə etməkdən çəkindirməkdən, məsələn, şəxslərin ölüm və ya işgəncə ilə üzləşə biləcəyi ölkələrə qaytarılmaması kimi hallardan ibarətdir.

Müvəqqəti məcburiyyət tədbirləri barədə qərar Məhkəmə tərəfindən yalnız aydın şəkildə müəyyən edilmiş vəziyyətlərdə, xüsusilə də Konvensiyanın ciddi pozuntusunun baş verməsi təhlükəsi olduqda qəbul edilir. Müvəqqəti məcburiyyət tədbirləri barədə edilən müraciətlərin böyük bir qismi əsassızdır və buna görə də rədd edilir.

**Məhkəmə ilə əlaqə:**
Məhkəmə müvəqqəti məcburiyyət tədbirləri barədə müraciətləri göndərmək üçün xüsusi faks nömrəsi yaratmışdır: +33 (0)3 88 41 39 00
+33 (0)3 90 21 43 50

**Müraciətlərin bu nömrədən istifadə edilmədən göndərilməsi müraciətinizin dərhal baxılmamış qalmasına səbəb ola bilər** (xüsusilə də bayram günlərində). Bu səbəbdən, müvəqqəti məcburiyyət tədbirləri ilə bağlı bütün yazışmalar üçün yuxarıda göstərilən əlaqə nömrəsindən istifadə edin.

**Faks və məktubların qəbul edildiyi vaxt:**

- Bazar ertəsindən Cümə gününə qədər saat 8.00-dən 4.00-ə dək*
- Saat 4.00-dən sonra göndərilən müraciətlərə adətən həmin gün baxılmır. (Bayram günlərinin siyahısı)

Müraciətlər mümkün qədər ətraflı və yığcam şəkildə ifadə olunmalıdır. 10 səhifədən artıq olan faksların bir neçə hissədə göndərilməsi tövsiyyə olunur. Belə halda faksların alınması asanlaşır və onlara ən səmərəli şəkildə baxılır.

**** Yerli vaxt (GMT + 1)***

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

## Məlumat və sənədlər müraciətə əlavə edilməlidir

Sənədin birinci səhifəsində qalın (bold) hərflərlə qeyd edin:

**“Rule 39. Urgent”**
**Əlaqə saxlanacaq şəxs barədə məlumat (adı və əlaqə vasitələri):...**

Deportasiya və ya ekstradiksiya hallarında aşağıdakılar göstərilməlidir:

**Ölkədən xaric olunmanın gözlənildiyi tarix, vaxt və xaric olunduğu yer: ....**

Müraciətinizi əsaslandırılmış, dəqiq və tam şəkildə ifadə etməlisiniz.
Müvəqqəti məcburiyyət tədbirləri barədə müraciətlər Məhkəməyə ərizəçinin razılığı ilə təqdim olunmalıdır; müraciətin düzgün şəkildə doldurulmuş ərizə forması ilə müşayiət olunması arzu olunandır. Müraciət ərizəçinin nümayəndəsi tərəfindən edilərsə, doldurulmuş vəkalətnamə forması dərhal və ya qısa zamanda, bir neçə gün ərzində göndərilməlidir.

Sənədə müraciətlə bağlı bütün qərarların, xüsusilə də yerli məhkəmə və digər orqanlar tərəfindən qəbul edilmiş qərarların surətlərini əlavə edin.

Məhkəməyə sübut kimi qəbul edilə biləcək hər hansı digər sənədlərin surətlərini əlavə edin.

## Müraciətə əlavə edilən məlumat və sənədlər

Müvəqqəti məcburiyyət tədbirləri barədə müraciət təqdim edildikdən sonra, ərizəçi və ya ərizəçinin nümayəndəsi müraciətlə bağlı yeniliklər barədə məlumat verməlidirlər. Məsələn, ərizəçinin rəsmi statusu yaxud digər şərtlər (məsələn, ərizəçiyə müvəqqəti yaşayış icazəsi verilməsi və ya ərizəçinin vətəndaşı olduğu ölkəyə qayıtması) barədə dərhal Məhkəməyə məlumat vermək lazımdır. Ərizəçinin nümayəndəsi ərizəçi ilə əlaqəni itirdiyi halda, öz təşəbbüsü ilə bu barədə Məhkəməyə dərhal məlumat verməlidir.